# Azərbaycan və Şimali Kipr arasında ailə, qadın və uşaq məsələləri üzrə əməkdaşlıq müzakirə olunub

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova dekabrın 4-də Şimali Kipr Türk Cümhuriyyətinin əmək və sosial müdafiə naziri Oğuzhan Hasipoğlu ilə görüşüb.

Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə çıxış edən B.Muradova ölkələr arasındakı münasibətlərin uğurlu inkişafından məmnunluğunu ifadə edib. O, ölkəmizdə həyata keçirilən ailə siyasəti, qadınların sosial və iqtisadi baxımdan gücləndirilməsi, uşaq hüquqlarının müdafiəsi istiqamətində görülən işlər barədə ətraflı məlumat verib. Həmçinin erkən nikah və qohum evlilikləri ilə bağlı qanunvericilikdəki son dəyişikliklərdən, gender bərabərliyinin təmin olunması, qızların təhsilinə dəstək məqsədilə reallaşdırılan layihələrdən danışıb. Bildirib ki, Azərbaycan bu sahədə formalaşmış müsbət təcrübəsini bölüşməyə hazırdır.

Nazir O.Hasipoğlu Şimali Kiprdə sosial müdafiə sahəsində görülən işlərdən danışıb. Qadınların məşğulluğunun artırılması, onların əmək bazarında iştirak imkanlarının genişləndirilməsi, peşə və sahibkarlıq bacarıqlarının gücləndirilməsi üzrə həyata keçirilən layihələri diqqətə çatdırıb. O, gələcəkdə birgə layihələrin reallaşdırılması, qadın və uşaq hüquqlarının müdafiəsi sahəsində əməkdaşlığın genişləndirilməsi ilə bağlı təkliflərini bölüşüb.



Görüş zamanı qarşıdakı dövr üçün nəzərdə tutulan əməkdaşlıq istiqamətləri ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycan. - 2025.- 5 dekabr (№ 257).- S.2.